# Birinci Qarabağ müharibəsinin itkin şəhidləri dəfn edilib

## Qəbələ

Birinci Qarabağ müharibəsinin daha bir itkin şəhidi - Vəkil Möylan oğlu Qayıbov Qəbələ rayonunun Qəmərvan kəndindəki qəbiristanlıqda dəfn olunub.



AZƏRTAC xəbər verir ki, əvvəlcə şəhidin ata yurdunda vida mərasimi keçirilib. Cənazə namazı qılınıb, dualar oxunub. Sonra itkin şəhid torpağa tapşırılıb. Dəfn zamanı Dövlət himni səsləndirilib, yaylım atəşi açılıb.

Dəfn mərasimində şəhidin ailə üzvləri, qazilər, kənd sakinləri, eləcə də Qəbələ Rayon İcra Hakimiyyətinin və hüquq-mühafizə orqanlarının əməkdaşları, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Şəhidin xalası oğlu Zaur Şirinov bildirib ki, Vəkil Qayıbov 1973-cü il avqustun 30-da anadan olub. O, Bakı Ticarət Texnikumunda oxuyurmuş. "Oradan evə gəlib və ön cəbhəyə gedəcəyini bildirib. Döyüşlərdə dəfələrlə fərqlənib. Qorxmaz, mübariz oğlan idi", - deyə o vurğulayıb.

Zaur Şirinov deyib ki, Vəkil Qayıbov 1992-ci il iyunun 15-də Ağdərə rayonunun Sırxavənd kəndi istiqamətində gedən döyüşlərdə itkin düşüb.

Qeyd edək ki, Qəmərvan Qəbələdə ən çox şəhidi olan kəndlərdən biridir.

## Quba

Birinci Qarabağ müharibəsinin itkin şəhidi Murad Məlikməmməd oğlu Vəliyev Qubada dəfn edilib.



AZƏRTAC xəbər verir ki, 1994-cü ildə şəhidlik zirvəsinə ucalan qəhrəman döyüşçü ölümündən 31 il sonra doğma yurdunda torpağa tapşırılıb.

Dəfn mərasimində şəhidin ailə üzvləri ilə yanaşı, Quba Rayon İcra Hakimiyyətinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Quba rayon şöbəsinin, hüquq-mühafizə orqanlarının, rayon ictimaiyyətinin nümayəndələri, qazilər və sakinlər iştirak ediblər.

Vida mərasimi keçirildikdən sonra şəhid Murad Vəliyev doğulub boya-başa çatdığı Quba rayonunun Nütəh kəndində dəfn edilib.

Dəfn mərasimində "Şəhidlər ölməz, Vətən bölünməz" şüarları səsləndirilib, şəhidlərin ruhuna dualar oxunub, Azərbaycanın üçrəngli Bayrağı şəhidin ailəsinə təqdim edilib.

Murad Vəliyev 1971-ci il aprelin 5-də Qubanın Nütəh kəndində anadan olub. 1992-ci ildə könüllü olaraq Birinci Qarabağ müharibəsinə qoşulub. Füzuli rayonu istiqamətində gedən döyüşlərdə qəhrəmanlıqla döyüşüb. Bu vaxta kimi itkin düşmüş hesab olunurdu. Şəhid Murad Vəliyevin qalıqları Füzuli rayonunun Seyidəhmədli kəndi ərazisində aşkarlanıb.

Azərbaycan.- 2025.- 14 sentyabr (№196).- S.7.